*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 18 aprel 2018-ci il | № 29 (2245) | Qiyməti 25 qəpik

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycanın hərbi potensialının möhkəmləndirilməsi əsas prioritetlərdən biridir



*"Azərbaycanın hərbi potensialının möhkəmləndirilməsi əsas prioritetlərdən biridir". Bu barədə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu yaxınlarda Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində bildirib.*

Dövlət başçısı bu istiqamətdə çox işlərin görüldüyünü qeyd edib: "Müxtəlif reytinqlər tərtib edən beynəlxalq ekspertlərin və təşkilatların hesablamalarına görə, bu gün Azərbaycan Ordusu dünyanın ən yaxşı təchiz olunmuş və döyüş qabiliyyətli 50 ordusu sırasına daxildir. Biz silahların yenilənməsi prosesini praktiki olaraq başa çatdırmışıq. Ordumuz həm hücum, həm də müdafiə xarakterli ən müasir, yüksək dəqiqliyə malik texnoloji silahlarla təchiz olunub. Biz silahları ən yaxşı istehsalçılardan alırıq və bu silahlar bizə özümüzü yetərincə inamlı hiss etmək imkanı verir. Təbii ki, təkcə silahlanma sayəsində güclü ordu yaratmaq olmaz. Buna görə, əlbəttə, ordumuzun döyüş qabiliyyətinin artırılması, intizamın möhkəmləndirilməsi üçün çox iş görülüb. Əlbəttə ki, çoxsaylı təlimlər və treninqlər bizdə, hələlik, mövcud olan çatışmazlıqları göstərir".

Prezident İlham Əliyev Azərbaycan Ordusunun maddi-texniki bazasının xeyli möhkəmləndirildiyini qeyd edib: "Bizim bütün hərbi bazalarımızın və hərbi şəhərciklərimizin 80 faizindən çoxu, əslində, yenidən inşa edilib. Qarşıdakı illərdə biz maddi-texniki baza ilə bağlı prosesi tam başa çatdıracağıq. Təbii ki, qarşıdakı illərdə biz hərbi quruculuq işi ilə fəal məşğul olacağıq. Silahların alınması məsələsinə gəldikdə, bu iş daha böyük seçim əsasında, daha konkret aparılacaq, müvafiq məsələlərin həlli üçün həyata keçiriləcək. Bununla paralel olaraq, təqribən 10 il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Ona görə ki, o vaxta qədər biz hərbi məhsullar istehsal etmirdik. Bu gün isə belə məhsulları nəinki istehsal edir, həm də ixrac edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Bu məhsullar beynəlxalq standartlara uyğundur və bizim bir sıra göstəricilər üzrə idxaldan asılılığımızı azaldır, həmçinin yaxşı ixrac potensialı yaradır. Belə ki, Azərbaycan silah ixrac edən ölkəyə çevrilir".

**"Azərbaycan Ordusu"**

# Həqiqi hərbi xidmətə çağırış davam edir

*"Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 mart 2018-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar respublikamızın şəhər və rayonlarında çağırışçıların təntənəli surətdə həqiqi hərbi xidmətə yola salınması mərasimləri davam edir.*




Həmin mərasimlər sübut edir ki, müstəqil Azərbaycanda ordu quruculuğu prosesi ölkə siyasətinin prioritet istiqamətlərindən biridir və ordu dövlətin suverenliyini, ərazi bütövlüyünü təmin edən əsas qüvvədir. Ona görə də vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması və həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması dövlətin diqqət mərkəzindədir. Ölkəmizdə səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların hərbi qeydiyyata alınması, hərbi xidmətə hazırlanması və müddətli həqiqi hərbi xidmətə çağırılmasının təşkili, Azərbaycan Ordusunun çağırışçılarla komplektləşdirilməsi, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi, müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığı, eləcə də digər sahələrə xüsusi diqqət yetirilir.

Həqiqi hərbi xidmətə yola salınması mərasimlərində mərkəzi və yerli icra hakimiyyət orqanlarının, ictimaiyyətin, KİV-in və QHT-in nümayəndələrinin iştirakı gənc çağırışçılar arasında ruh yüksəkliyi ilə qarşılanır.

Gəncləri yola salan ziyalılar, ictimaiyyətin nümayəndələri Vətəni qorumaq kimi müqəddəs bir borcun yerinə yetirilməsində onlara dəyanətli, əzmkar olmalarını, komandirlərin əmrlərini vaxtlı-vaxtında yerinə yetirmələrini tövsiyə edir, hərbi xidməti şərəflə bitirmələrini arzulayırlar.

Mərasimlərdə çıxış edən valideynlər, müharibə veteranları və ictimaiyyətin nümayəndələri Azərbaycan Ordusunun keçdiyi tarixi yoldan, ordumuzun formalaşmasında və güclənməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin və onun siyasi kursunu layiqincə davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdikləri işlərdən söz açırlar. Çıxışçılar onu da qeyd edirlər ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı ilə uğurla davam etdirilən ordu quruculuğu prosesi yeni mərhələyə qədəm qoyub. Bu gün Azərbaycan Ordusu istənilən an düşmənə sarsıdıcı zərbə vurmaq, torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. Ordumuzda ruh yüksəkliyi və vətənpərvərlik hissləri olduqca yüksəkdir.

Hərbi xidmətə yola düşən gənclər adından çıxış edənlər Vətən və xalqımız qarşısında xidməti borclarını şərəflə yerinə yetirəcəklərini, torpaqlarımızın azad edilməsi naminə Ali Baş Komandanın hər bir əmrinə hazır olacaqlarını bildirirlər.

**"Azərbaycan Ordusu"**

# Pakistan Milli Müdafiə Universitetinin nümayəndə heyəti ölkəmizdə səfərdədir




Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin briqada generalı Anjum Riazın rəhbərliyi ilə Pakistan Milli Müdafiə Universitetinin nümayəndə heyəti Bakıya səfərə gəlib.

Nümayəndə heyətinə Milli Müdafiə Universitetində təhsil alan Pakistan Silahlı Qüvvələri və dövlət qurumlarının, o cümlədən Braziliya və Nepal Silahlı Qüvvələrinin yüksək rütbəli zabitləri daxildir.

Səfər çərçivəsində nümayəndə heyəti bir sıra nazirliklər, dövlət xidmətləri, agentlik və universitetlərdə görüşlər keçirəcək. Qonaqlar, həmçinin ölkəmizin tarixi və mədəniyyəti, iqtisadi, daxili və xarici siyasəti və digər sahələr barədə ətraflı məlumat əldə edəcəklər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**




# Bakıda kursantlar arasında beynəlxalq idman yarışı keçirilir

Aprelin 17-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələrinin kursantları arasında beynəlxalq idman yarışlarına start verilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yüngül atletika, güləş, pentatlon, futbol və voleybol üzrə təşkil olunacaq yarışlarda 100-dən artıq hərbi idmançı iştirak edir.

Yarışlar aprelin 21-dək davam edəcək.

*Nümunəvi xidmət*

# Vətənə xidmət vətəndaşlıq borcudur

Yaxın tariximizdə baş verən aprel döyüşləri sübut etdi ki, regionun güclü ordusu olan Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə hazırdır. Bu döyüşlər dövlətimizin və ordumuzun gücünü, xalqımızın həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirdi. Dünyaya bəyan etdi ki, aprel zəfəri Azərbaycan Ordusunun qazanacağı qələbələrin yalnız başlanğıcıdır.

Bu savaş göstərdi ki, Azərbaycan igidlər diyarı, qəhrəmanlar ölkəsidi. Bu savaş bizlərə cəsarətin, hünərin, qorxmazlığın, şərəfin, namusun, qeyrətin, fədakarlığın simvolları, millətimizin, dövlətimizin qüruru, iftixarı olan neçə-neçə oğulları bəxş etdi. Belə oğullardan biri - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Xəzər Mirzəyevlə ön xətdə yerləşən hərbi hissələrimizdən birində həmsöhbət oluruq. Füzuli rayonunun Arazyağlıvənd kəndində anadan olan Xəzər Mirzəyev də aprel döyüşlərində fərqləndiyinə görə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.



- Uzun müddət idi ki, düşmən yaşayış məntəqələrimizi, döyüş mövqelərimizi müxtəlif növ silahlardan atəşə tuturdu, - deyə kiçik çavuş Xəzər Mirzəyev aprel döyüşləri ilə bağlı xatirələrindən danışdı. - Ermənilər aprelin 1-də təxribat yaratmaq məqsədilə hücuma keçdi. Ordumuz əks-həmlə ilə düşmən qüvvələrini geri oturtdu. Ermənilər bizim torpaqlarda qurduqları postları tərk edib qaçırdılar. Biz həmin mövqelərdə düşmən üzərinə gedərək canlı qüvvələrini məhv etdik. Öz torpaqlarımızda yeni postlarımızı qurduq və möhkəmləndirdik. Bu artıq qələbənin ilk pilləsi idi.

Yaranan ruh yüksəkliyinə də toxunan kiçik çavuş bildirdi ki, həmin günlərdə xalqımızın nümayəndələri ön xəttə can atır, sevinclərini oğullarımızla bölüşmək istəyirdi: "Maraqlısı budur ki, düşmən tərəfdə əks situasiya müşahidə olunurdu. Ermənilər postlar qurmuşdular ki, döyüşdən qaçanların qarşısını alsınlar. Xalqın bizə göstərdiyi diqqət alqışa layiq idi. Həmin anları yaşayanda sevincdən yaranan göz yaşımızı gizlətmək mümkün deyildi."

- Mənə verilən mükafatı Azərbaycan Ordusunun bütün əsgər və zabitlərinə aid edirəm, - deyə müsahibim sözünə davam etdi. - Çünki bu Qələbənin qazanılmasında bütün hərbi qulluqçuların xidmətləri var. Hər birimiz yaxşı anlayırdıq ki, torpaqlarımızın müdafiəsini hər şeydən üstün bilən atalarımız Vətənlərini canları bahasına qoruyub bizə əmanət ediblər. Bizlərin də borcu Vətənin müdafiəsindən geri çəkilməmək, ən çətin anlarda da torpaqlarımızı qorumaqdı. Biz Vətənə xidməti mənəvi borc kimi dərk edirik. Ona görə də, əsas amalımız medal almaq deyil, əsas amalımız Vətəni qorumaqdı, Vətənin əsgəri olmaqdı.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
Coşqun CƏFƏROVUNDUR**

# Gənc əsgərlərin hərbi hissədə ilk günü

*"Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, ordu sıralarına qatılan gənc əsgərlərin qəbulu davam edir.*



"N" hərbi hissəsində ezamiyyətdə olarkən 18 yaşı tamam olan, habelə yaşı 35-dək olan Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçməyən, çağırışdan möhlət hüququ olmayan və azad edilməmiş Azərbaycan Respublikası vətəndaşlarının qəbulu prosesinin şahidi olduq.

Nəzarət-buraxılış məntəqəsindən hərbi hissəyə daxil olarkən səliqə-sahman, nizam-intizam, binaların və əsgər yataqxanalarının ən müasir formada tikilməsi diqqətimizi cəlb edir. Təbiətin oyanması, ağacların yaşıl don geyinib çiçək açması isə gənc əsgərlərin hazırlığı ilə məşğul olan hərbi hissəyə ayrıca gözəllik verir. Bütün hərbi hissələrdə olduğu kimi, burada da gənc əsgərlərin peşəkar səviyyədə formalaşdırılması üçün hər bir şərait yaradılıb.



Hərbi xidmətə yeni gələn gənc əsgərlərin üzündə sevinc və həyəcanın olduğu hiss olunur. Düşünürəm ki, sevinclərinin səbəbi çoxlarının uşaqlıq arzusu olan forma geyinmək istəyidirsə, həyəcanlı olma səbəbi yeni mühitin təsiridi.

Yeni gələn əsgərlər şəxsi heyətin uçotu bölməsinə gələrək qeydiyyatdan keçir, hərbi biletdəki məlumatlar yoxlanılır və bölgü aparılır.

Şəxsi heyətin uçotu bölməsinin rəisi Ceyhun Abbasov bildirir ki, qeydiyyat zamanı diqqətli olmaq lazımdır. Əsgərlər adlı siyahı ilə yoxlandıqdan sonra hərbi biletdəki məlumatlarını dəqiqləşdirib həkim müayinəsinə göndərirlik. Müasir tibbi avadanlıqlarla təchiz olunan tibb məntəqəsində ilk olaraq şəxsi heyətə boyu və çəkisi qeydə alınmaqla tibbi kitabça açılır. Gənc əsgərlər rentgenə salınaraq agciyərləri və daxili orqanları yoxlanılır. Həkim komissiyası tərəfindən ümumi şəkildə yoxlanan əsgərlərin sağlamlığına tam əmin olduqdan sonra onlar təyin olunduğu bölməyə göndərilir.

Əsgərin ilk xidmət anı buradan başlayır. Zabitlərin xoş münasibəti, isti rəftarı ilə qarşılaşan gənc əsgərlərin üzlərinə gülüş qonur.

Kapitan Rasim Məlikov hər bir əsgərə doğma münasibət göstərdiklərini bildirir:

- Hər biri bizim gələcəyimiz, döyüş zamanı silahdaşımızdır. Onların təcrübəli döyüşçü kimi formalaşması üçün bütün bilik və bacarıqlarımızı öyrətməyə çalışırıq. Bu gün ilk günləri olduğu üçün şəxsi gigiyenalarına diqqət edəcək, yataq yerlərini qaydasına salacaq, hərbi hissə ilə tanışlıq həyata keçirəcəklər, - Rasim Məlikov deyir.

Əsgərlərin müəyyən edilmiş qaydaya uyğun olaraq saçları qırxılır və onlar hamama göndərilirlər. Daha sonra gizir Kamran Ramazanov onlara ilk formalarını təqdim edir, tövsiyəsini verməyi də unutmur:

- Bu formanı geyindiyiniz andan nizam-intizam baş tacınız olmalıdır. Sevərək geyinib, sevərək xidmət edin. Çünki əlinizdə tutduğunuz adi geyim deyil. Əyninizə geyinəcəyiniz bu mundiri şəhidlərimiz, qəhrəmanlarımız çiyinlərində daşıyıb. Hər biriniz bir qəhrəman, bir igidsiniz. Siz Azərbaycan Ordusunun nümayəndəsisiniz.

Əsgərlər deyilən sözlərdən sonra formalarını geyinirlər. Hər birinin üzündən sevinc, qürur hissi sezilir. Yataq dəstləri ilə təmin olunan əsgərlər yataq yerləri ilə tanış olurlar. Gizir Kamran Ramazanov onlara öz yerlərini hansı qayda ilə düzəltmələrini izah edir. Tam şəkildə hazır olan şəxsi heyət bölük komandirinə təqdim olunur.

Bölük komandiri baş leytenant Kamil Həsənov gənc əsgərlərlə ilk söhbətində Vətən sevgisindən, xidmətin müqəddəsliyindən danışır:

- Hər biriniz bu gündən Azərbaycan Respublikasının vətəndaşı olaraq Vətənə övladlıq borcunuzu yerinə yetirirsiniz. O borc ki, hər birimizin uşaqlıq arzusudu. Bu gün dayandığınız sıra, geyindiyiniz forma müqəddəsdir. Bir zamanlar bu sırada Mübariz, Fərid, Samid və başqa qəhrəmanlar dayanıb. Geyindiyiniz formanı canları bahasına üstün tutub, Vətən torpağını həyatdakı ən şirin pay bilibər. Uzun müddətdir ordu sıralarında xidmət edən zabit kimi hər birinizə bütün biliklərimi aşılamağa çalışacam. Siz də məsuliyyətli olun ki, təcrübəli əsgər kimi formalaşasınız. Bu sizin həm mənəvi, həm də xidməti borcunuzdu. Mənəvi borcdur, ona görə ki, düşmən qarşısında məğlub olmaq istəməzsiniz, xidməti borcdur, ona görə ki, Vətən sizdən hünər gözləyir.

Gənc əsgərlər təyin olunmuş formada hərbi hissə ilə tanış olurlar. İnzibati binalar, əsgər yeməkxanası, camaşırxana, hərbi hissənin avtomobil parkı və digər bölmələrlə tanış olan əsgərlər gündəlik fəaliyyətlərini davam etdirirlər. Şam yeməyindən sonra gənc əsgərlərin bəziləri ilə həmsöhbət olub, ilk təəssüratlarını öyrənirik.



Gənc əsgər Vurğun Məlikzadə Sabirabad rayonundan hərbi xidmətə çağırılıb. Kəndli ailəsində vətənpərvər ruhda böyüyən əsgər deyir ki, Vətənə xidmət borcumuzdu. - İnsan həyatında unudulmaz anlar elə də çox olmur. Amma bu gün mənim üçün əvəzedilməz və unudulmazdır. İlk dəfə forma geyinib, sıraya dayanıram. İlk dəfə hərbi yemək yeyirəm. Hərbi müraciət formaları isə mənə çox maraqlıdır. Zabitlərin diqqət və qayğısı, mehriban yanaşması isə olduqca ürəkaçandır. Atam mənə "əsgərlik kişilik məktəbidir" deyərək yola salıb. Onların xeyir-duası ilə bura gəlmişəm və söz vermişəm ki, torpaqlarımızı azad edənlərin sırasında mən də olacam. Əsgərliyim başa çatsa da, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluçusu kimi xidmətimi davam etdirmək niyyətindəyəm.

Kürdəmir rayonundan hərbi xidmətə çağırılan gənc əsgər Fuad Şirəliyev isə bildirir ki, Vətəni sevmək, onun qarşısında övladlıq borcunu yerinə yetirmək üçün gərək doğulduğun torpağın keçmişini biləsən, bu günü ilə yaşayasan, sabahı üçün çalışasan. - Keçmişinə, tarixinə bələd olduğumuz bu torpağın tarixən başı bəlalar çəkib. Mənfur qonşumuz ermənilərin törətdiyi soyqırımıların, sinəmizdə açdığı yaraların sayı hesabı yoxdu. Vətəninə, torpağına qəlbən bağlı olan bir insan olaraq hər dəqiqə, hər an torpaqlarımızın işğaldan azad edilməsi, şəhidlərimizin qisasının alınması haqqında düşünmüşəm. Nəhayət, hərbi xidmətdəyəm. Növbəti günlərdən döyüş hazırlığı dərslərini keçəcək, təlim atışlarına gedəcəyik. Nizamlı olmaqla yanaşı, sərrast atıcı, bacarıqlı əsgər kimi formalaşmaq qarşıma qoyduğum məqsəddir. Bu gündən, bu andan mənim vəzifəm Vətəni, doğma torpağı qorumaq, ona xidmət etməkdir. Bu sevgiyə köklənən hər bir əsgərin xidməti uğurlu olur. Qəzetiniz vasitəsilə bütün əsgərlərimizə uğurlu qələbələr arzulayıram.

Bu gün ordu sıralarına qatılan əsgərlər sırasından da qəhrəmanlar, igidlər çıxacağına əminəm. Onların qəhrəmanlıqlarını qələmə almaq arzusu ilə vidalaşıram...



**Baş leytenant Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# “Qələbə yolu səngər dostluğundan keçir”

*Dostluq... Dostluq həyatın ən gözəl anlamıdır. Dostluq ülvidir, onda bəşəriyyətin igidlik gücü parlayır. Dost olan kəs daş kimi möhkəm və dözümlü, od kimi daimi və alovlu, su kimi saf və təmiz, torpaq kimi güclü və qüvvətli olmalıdır. Belə olan insanlarla dostluq etməyə dəyər. Dostluq o qədər dəyərli bir münasibətdir ki, sözlərlə anladılması çətindir.*



Dostluq və qardaşlıq münasibətləri təkcə insanlar arasında deyil, ölkələr arasında da qurulur. Coğrafi məkan yaxınlığımız, bir dövlətin tərkibində olmağımız qonşu dövlətlə əlaqələrin qurulmasına səbəb olmuşdu. Zaman sübut etdi ki, bu əlaqələrin kökündə saxtakarlıq, xəyanət dayanıb. Tarixin sınağından keçib gələn dostluq dəyərləri xəyanəti və arxadan vurulan zərbəni bağışlamır. Azərbaycan xalqı da ona dost deyib arxa çevirən, kürəyinə bıçaq saplayan xəyanətkar düşməni heç vaxt bağışlamayacaq. Ona qarşı faciələr, soyqırımılar törədən, başına müsibətlər açan və ata-baba yurdlarından didərgin salan ermənilərin hiyləgər oyunlarını, xəyanətkarlığını xalqımız heç zaman unutmayacaq.

Dostluq elə bir fədakarlıqdır ki, sən onun üçün ölümün üstünə atılarsan. Ona görə də əsl yoldaşlığı, dostluğu xidmət illərində qazanırsan. Bir qazandan yemək yediyin, bir qabdan su içdiyin, birlikdə döyüş növbətçiliyi apardığın, ona canını əmanət etdiyin şəxsdi dost.

Ön xətdə hərbi hissələrdən birində ezamiyyətdə olarkən əsgərlərin bir-biri ilə münasibəti məni çox qürurlandırdı. Marağım mənə güc gəldi və iki əsgərlə həmsöhbət oldum. Onlar bir-birilərinə "candaş" deyə müraciət edirdilər. Necə də xoşdur, onların bu cür münasibətinin şahidi olmaq. Əsgər Elsevər Məmmədquliyev qeyd etdi ki, onların ilk tanışlığı döyüş postunda başlayıb: "Xidmətə yeni gəlmişdim. Komandirlərimiz bizə döyüş növbətçiliyini aparmağı başa salır, təhlükəsizlik qaydalarını çatdırırdılar. Müşahidə postuna çıxacağım günü səbirsizliklə gözləyirdim və o an gəlib çatdı. Mən də silahımı götürüb, təlimata çıxdım. İkiqat həyəcanlı idim. Çünki həm ilk növbətçiliyim idi, həm də ən böyük arzuma çatmışdım. Artıq müşahidə aparırdıq. Postda danışmaq qadağan olduğu üçün yanımdakı əsgər yoldaşımla danışa bilməzdim. Növbəni təhvil verdikdən sonra söhbət etdik".

Elsevər deyir ki, onun həyəcanlı olmağını əsgər yoldaşı hiss edib və postdan qayıdan kimi ona dəyərli məsləhətlər verib: "Mənə heç nədən qorxmamağı tövsiyə etdi və qarşımızda duran düşmənin xainliyindən, hiyləgərliyindən, xalqımızın başına açdığı müsibətlərdən danışdı. Bunları eşitdikcə nifrət məni boğurdu. Daha nə həyəcan var, nə də qorxu. Dua edirəm ki, Ali Baş Komandanımız tez bir zamanda döyüş əmrini versin və bizlər onun rəhbərliyi altında həm qisasımızı alaq, həm də torpaqlarımızı azad edək".

Növbəti həmsöhbətim isə gənc dostuna dəstək olan əsgər Mirtosif Cəfərovdur. Xidmətə Cəlilabad rayonundan çağırılan əsgərə bir sualla müraciət etdim:

- Səncə əsgər dostluğu nədir?

- Ümumilikdə dostluq fədakarlıq deməkdir. Asan yaranan dostluq qısaömürlü, çətinliklə qazanılan dostluq uzunömürlü olur. Səngər dostluğu da belədir. Ona canını əmanət edirsən, hər şeyi paylaşırsan. Atam həmişə mənə deyərdi ki, "Səngər dostluğu qırılmaz zəncirdir". Məktəb illərində qazandığım dostlarım da var. Amma burada hər kəs bir-biri ilə fəxr edir və bir-birini qoruyur. Xidmətimi başa vurub ailəmin yanına getməyimə az qalır. Ən böyük arzum döyüş başladığı an səngərdə qazandığım dostlarımla çiyin-çiyinə vuruşmaq və işğal altında olan torpaqlarımızı azad etməkdir. Biz də bilirik ki, qələbə yolu səngər dostluğundan keçir.

Həqiqətən də, səmimi dostluq illərin sınağından çıxır, bərkdə-boşda, həyatın enişli-yoxuşlu yollarında sınanılır. Elsevər və Mirtosif də döyüş yolunu birlikdə keçib, aralarında əsl dostluq münasibəti qurublar. Hər ikisi arzu edir ki, dostluqları əbədi olsun və birlikdə döyüş meydanında düşməni məğlub edib, Şuşanı, Laçını, Kəlbəcəri və digər torpaqlarımızı qarış-qarış gəzsinlər.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# “Yolumuz haqq yoludur”

*Cəbhəyanı ərazidə yerləşən hərbi hissələrdən birinə, Vətənimizin müdafiəsində duran oğullarımızla tanış olmağa gəlmişik. Düşmənlə təmas xəttində yerləşən torpaqlarımızda xidmət edən gənclərimizlə söhbət aparmaq fəxrdir. Dövlətinin ərazi bütövlüyü üçün gecə-gündüz düşmənə qarşı mübarizə aparan oğullarımızı hamımız tanımalıyıq. Onlar qürur yerimizdir.*

Təcrübəli sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Cavidan Qarayev bizi yüksəklikdə yerləşən bölməyə aparır. Əlverişsiz hava şəraitinə baxmayaraq, Cavidan "UAZ" markalı avtomobili sərbəst idarə edirdi. "Təcrübəni bu yolları gedib-gəlməklə qazanmışam. Gəzdiyimiz bu yerlər mənim üçün doğmadır. Belə ərazidə avtomobili idarə etmək çətin olsa da, peşəmə olan sevgimin gücünə bu işin öhdəsindən gəlirəm" - deyə Cavidan Qarayev bildirir.

Yolboyu mayor Fariz Hüseynov bizi ərazilərlə tanış edir. Uzun müddətdir burada xidmət edən zabit bu yerlərə yaxşı bələddir. Yüksəkliklər barədə bizi məlumatlandıran zabit yoldaşımız, düşmən tərəfdən gələ biləcək təhlükəli istiqamətləri də göstərir. Zabitdən keçdiyimiz ərazilərlə bağlı məlumat alıram: "Yüksək zirvələrdə yerləşən bölmələrimizə qış aylarında maşınla qalxmaq çətin olsa da, təcrübəli sürücülərimizin sayəsində yolu rahat və təhlükəsiz qət edə bilirik. Bu yerlərdə dövlətinə və xalqına xidmət etməyi ömrünün mənası bilən kifayət qədər gənc, perspektivli zabitgizirlərimiz var. Gənclərimizin hərbi vətənpərvərlik ruhunda böyüməsi ordumuzun qüdrətini daha da artırır. Hərbi-texniki təminat ötən illərlə müqayisədə xeyli yüksəlib. Bu isə hərbi qulluqçularımızı daim nümunəvi xidmət etməyə ruhlandırır. Üzərində gəzdiyimiz torpaqların hər qarışı bizim üçün əzizdir. Buna görə də Vətənimizi göz bəbəyi kimi qoruyuruq".

Ön xətdə ilk olaraq kapitan Cəsarət Abdullayevlə görüşürük. Cəsur görkəmdə olan komandirlə tanışlıqdan öyrənirəm ki, 1988-ci il fevralın 1-də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda anadan olub. 2002-ci ildə indiki Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub. 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirdikdən sonra ordu sıralarına zabit kimi göndərilib. Əsasən döyüş bölgələrində xidmət keçən gənc zabitimiz kifayət qədər təcrübəli və kollektivdə böyük hörmət və rəğbət qazanmış zabitlərimizdəndir.

Hərbə olan marağını soruşanda zabit bildirir ki, uşaq vaxtlarından hərbi mundirə olan sevgisi onun bu peşəyə yiyələnməsində mühüm rol oynayıb. "Hərbi formada olan insanlara həmişə həsəd aparırdım. Məndə də həmişə bu formanı daşımaq həvəsi yaranırdı. Elə buna görə hazırda zabitəm. Ön xətdə xidmət isə məsuliyyətimi daha da artırır. Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını təmin etmək əsas vəzifəmizdir. Şəxsi heyətin döyüşkən ruhda olması hər bir komandir üçün başucalığıdır. Postlarımızın yerləşdiyi dağlıq ərazilərdə vətənpərvər oğullarımız torpaqları qoruyur və düşməni daim nəzarətdə saxlayırlar. Düşmən tərəfindən törədilə biləcək hər hansı təxribatın qarşısı vaxtında alınır. Xidmət düzgün təşkil olunur və şəxsi heyət vəzifə borclarına ciddi yanaşır. Bütövlükdə şəxsi heyətimiz millətinə, torpağına bağlı olan gənclərdən ibarətdir. Belə vətənpərvər oğullarla birlikdə xidmət etmək mənim üçün qürurvericidir".



"Aprel döyüşləri bir daha onu göstərdi ki, Azərbaycan əsgəri qarşıya qoyulan tapşırıqların öhdəsindən qısa müddətdə gəlmək iqtidarındadır", - deyə kapitan Cəsarət Abdullayev sözünə davam edir: - Bu döyüşlər yeni qəhrəmanlıq salnaməsi yaratdı. 1994-cü ilin məlum uğurlu Horadiz əməliyyatından sonra ilk dəfə idi ki, qoşunlarımız düşmənin təxribatlarının qarşısını alarkən ona layiqli əks-həmlə ilə ağır, sarsıdıcı zərbə vurur. Xeyli sayda canlı qüvvə və texnika itirən düşmən, yaratdığı əhəmiyyətli mövqeləri tərk edərək canını qurtarmağa çalışırdı. Çox kiçik bir şəxsi heyətlə ordumuz mənfur düşmənə elə bir ağır zərbə yetirdi ki, bu günə kimi 2016-cı ilin aprel döyüşlərinin acı nəticələrini İrəvanda və separatçıların hələlik məskunlaşdıqları işğal olunmuş ərazilərimizdə olan bölmələri tam şəkildə aradan qaldıra bilməyiblər. Müharibə qansız-qadasız, itkisiz olmadığına görə, bu döyüşlərdə bizim də bəzi silahdaşlarımız həyatlarını itirdilər, şəhidlik zirvəsinə yüksəldilər. Həmin igid, qəhrəman silahdaşlarımızın ruhları hər birimiz üçün əzizdir. Azərbaycan Ordusunun bu döyüşlərdə düşmənə sarsıdıcı zərbələri gələcək nəsillərə bir örnək kimi dərsliklərdə, elmi araşdırmalarda öz əksini tapacaqdır. Bir qədər əvvəl də qeyd etdiyimiz kimi, düşmənin müdafiə qurğuları igid oğullarımız tərəfindən bir neçə saat ərzində sıradan çıxarılaraq ram edildi. Bu faktın özü bütün dünyaya bir sərt mesaj idi ki, bizim yolumuz - haqq yoludur və bu yolda biz sona qədər varıq. Torpaqlarımız sülh yolu ilə geri qaytarılmasa, biz bədnam qonşularımızın işğalçı qüvvələrini məcbur edəcəyik ki, geri çəkilsinlər. Əgər onlar işğalçı statusunda ölmək istəmirlərsə, tez bir zamanda doğru qərar verməlidirlər. Səbrimiz sonsuz deyil. Hələliksə, biz gündəlik döyüş hazırlığı planına əsasən, öz bilik və bacarıqlarımızı daha da təkmilləşdirərək Ali Baş Komandanımızın əmrini gözləyirik."

Gənc zabitimizin düşmənə olan sonsuz nifrəti gözlərindən oxunurdu. Adı kimi özü də cəsarətli olan həmsöhbətim düşməni torpaqlarımızdan qovacağımız günü səbirsizliklə gözləyir. Zabitlə söhbət zamanı bir daha əmin oluram ki, Azərbaycan Ordusunda xidmət edən vətənpərvər gənclərimiz düşmənə qarşı mübarizəyə hər zaman hazırdırlar. Tez bir zamanda biz belə mərd, mətin və mübariz zabit və əsgərlərimizlə birgə qarşıya qoyulan vəzifələri yerinə yetirib, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam şəkildə bərpa edəcəyik.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**



# Lələtəpəyə sancılan bayraq, Cocuq Mərcanlıda qaynar həyat, qələbəyə gedən yol

Aprel döyüşləri tarixə ordumuzun gücünün, xalqla ordunun birliyinin, vətənpərvərliyinin göstəricisi kimi düşdü. Aprel qələbəsi bir daha sübut etdi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Əks-hücum əməliyyatı aparan hissələrimiz mühüm mövqelərə sahib oldu. Lələtəpə kimi yüksəklik alındı. Nəticədə 1994-cü ildə düşməndən azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Hər kəs bu qalibiyyətin sevincini yaşayır.

Aprel qələbəsinin ikinci il dönümü ərəfəsində şəhid mayor Rasim Məmmədovun şərəfli döyüş yolunun izi ilə yolum Lələtəpəyədi. O torpaqlara ayaq basmağa tələsirəm. Yol uzaq, mənzil başına tez çatmaq istəyi isə sonsuz. Cocuq Mərcanlı kəndinin sakinlərinin torpaq həsrətini, doğma od-ocağa qovuşmaq istəyini indi daha yaxşı anlayıram.

Mənzil başına yetişirik. Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidovla görüşüb söhbətləşirik:

- 2016-cı il aprelin 1-i ön xətdə döyüş növbətçiliyi aparan bölmələrimizə düşmən qəfil hücum etdi. Şəxsi heyətimiz düşmənin müqavimətini qırdı. Düşmən müqavimət göstərməyə çalışsa da, döyüşçülərimizin gücünü gördükdən sonra əlindəki silahını atıb pərakəndə şəkildə qaçmağa başladı. Ermənilər təşviş içində idi. Bölmələrimiz əks-hücum ilə düşməni geri otuzdurdu, Lələtəpə yüksəkliyi və ətraf bölgələr düşməndən tamamilə azad edildi. Çox gözəl bir tarixi an yaşandı. Ordumuzun gücü, şəxsi heyətin döyüş ruhu ortaya çıxdı. Düşmənə və havadarlarına sübut olundu ki, Azərbaycan Ordusu 90-cı illərdəki ordu deyil və ordumuzun vahid komandanlığı, orduda xidmət edə biləcək peşəkar zabitlər var. Əsgərlərimiz, döyüşçülərimiz böyük rəşadət göstərdilər. Lələtəpə yüksəkliyinə üçrəngli bayrağımızı sancdılar.

"Vətən sərhəddən başlayır" deyirlər. Bu fikir ön xətdə əsgərlərimizin sırasında olarkən mənə daha yaxşı aydın oldu. Yayın istisindən, qışın soyuğundan çəkinməyən vətənpərvər oğullarımız ucalıq, əzəmət simvolu olan dağlarda döyüş növbətçiliyi aparır, sinəsini düşmənə sipər edirlər. Azərbaycan əsgərinin son dayanacağı olmayan Lələtəpə yüksəkliyindən işğal altında olan torpaqlarımızı seyr etdikcə düşünürəm ki, Şuşa, Xankəndi, Cəbrayıl, Laçın, Kəlbəcər, Qubadlı, Ağdam, Zəngilan bizim yolumuzu gözləyir. Biz bu yolun başlanğıcı olan Lələtəpə zirvəsində olduğumuz üçün qürur duyurduq. Aprel qələbəsinin əldə olunmasında xidmətləri olan zabitlərlə görüşüb həmsöhbət oluruq.

Ordumuzun qurucusu, ulu öndər Heydər Əliyev hələ 70-ci illərdə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi məktəbi yaradanda bəlkə də çoxları bunun əsl mahiyyətini dərk etmirdi. Həmin məktəbin məzunları bu gün ordumuzun sıralarında peşəkar zabit kimi xidmət edirlər. Müstəqillik illərində hərbi təhsilin inkişafı ilə bağlı Ulu Öndərimizin gələcəyə hesablanmış ən böyük qərarlarından biri də Naxçıvanda hərbi məktəbin əsasının qoyulması oldu. Kapitan Elmar Babayev Heydər Əliyev adına Naxçıvan Hərbi Liseyinin məzunlarındandır. Aprel döyüşlərinin iştirakçısı olan Elmar Babayev öz fikirlərini bizimlə bölüşür: "Aprel döyüşləri Azərbaycan Ordusunun yazdığı zəfər tarixidir. Azərbaycan Ordusu öz şücaət və məharətini həmin tarixdə düşmənə bir daha göstərdi. Düşmən xeyli sayda itki verdi. Bir zabit kimi Ali Baş Komandanı və bütün komandir heyətini əmin etmək istəyirəm ki, mən və mənim rəhbərlik etdiyim bölmə hər an döyüşə hazırdır. Hər an torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Düşmən o torpaqlarda çox qala bilməz".

Heydər Əliyev adına Naxçıvan Hərbi Liseyinin digər bir məzunu Zülfü Rzayev də ön xətdə xidmət edən peşəkar bir zabitdir. Zülfü Rzayev aprel hadisələrini belə xatırlayır: "Ermənilər bizim ön xətdə olan kəndləri çox vaxt atəşə tuturdu. Atəşkəsi mütəmadi olaraq pozurdu. Düşmən aprelin 1-də hücuma keçdi. Yuxarı komandanlığın əmrinə əsasən, əks-hücumla düşmən hücumunun qarşısı alındı. Şəxsi heyətimiz ön xətti yararaq düşmən mövqelərinə tərəf irəlilədi və ermənilərin canlı qüvvəsini, texnikasını məhv edərək, hazırda bizim nəzarətimizdə olan Lələtəpə yüksəkliyində qərar tutdu. Həmin yüksəkliyə qalxmağımızla qürur duyurduq. Çünki illər boyu həsrətində olduğumuz torpaqlarda idik. Bu böyük bir zəfər idi. Aprel döyüşləri bir daha sübut etdi ki, bizim ordumuz nəyə qadirdir".

Mayor Sədi Musayev söhbət zamanı bildirdi: "Lələtəpə mühüm əhəmiyyətə malik bir yüksəklikdir. Əvvəllər ermənilər bizim yaşayış məntəqələrini atəşə tuturdular. Gördüyünüz sahələri əkməyə imkan vermirdilər. Aprel döyüşləri zamanı Lələtəpə yüksəkliyi və onun ətrafındakı ərazilər azad edildi. Uğurlu bir əməliyyat oldu. Aprel şəhidləri bizim gənc nəsil üçün qəhrəmanlıq simvoludur. Onların hər biri Azərbaycanın qəhrəmanlarıdır".

"Biz Lələtəpə yüksəkliyini almaqla, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini düşmənin atəşi altında qalmaqdan xilas etdik", - deyə Naib İsmayılov söhbətə qoşulur. "Kənddə abadlıq işləri görülüb, evlər tikilib. Kənd sakinlərinin doğma yurd-yuvalarına qayıtması təmin olunub. Bu o deməkdir ki, növbəti ayaq basacağımız torpaqlar Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan... olacaq, belə evlər orada da tikiləcək. İnsanlar öz el-obalarına qayıdacaqlar."



Lələtəpədən Cocuq Mərcanlı çox gözəl görünür. Elə bu gözəlliyi görmək sorağı ilə yola düşürük. Cocuq Mərcanlıya gedən yolun üzərində yerləşən Horadizin bugünkü görkəmi göz oxşayır. Burada aprel şəhidlərinin xatirəsinə ucaldılan abidəni ziyarət edirik. Bu abidə gələcək nəsillər üçün daş üzərində əbədiləşdirilən hərbi vətənpərvərlik salnaməsidir.

Cocuq Mərcanlıya çatırıq. Burada həyat bərpa edilib. Cocuq Mərcanlı illərlə öz sakinlərinin yolunu gözləyib. Bu illər ərzində kənd tamamilə xarabazarlığa çevrilmişdi. Yol infrastrukturu sıradan çıxmışdı. Məhz Ulu Öndərin qətiyyəti ilə uğurlu Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun bir qəsəbəsi, 20 kəndi, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilmişdi. Düşmənin tez-tez bu kəndi atəşə tutmasına görə məskunlaşma mümkün olmayıb. Yalnız Oqtay Həziyev öz ailəsi ilə birlikdə təhlükəli olsa da, kənddə yaşayışını davam etdirib. İlk həmsöhbətimiz də Oqtay Həziyev oldu.

Oqtay Həziyev bildirdi ki, bu ərazilərdə yaşamaq mümkün deyildi, çünki kəndin üst tərəfində yerləşən Lələtəpə yüksəkliyi mənfur düşmənlərin əlində idi. "Uğurlu aprel döyüşlərində Lələtəpə yüksəkliyi işğaldan azad edildi. Ölkə başçısının sərəncamı ilə Cocuq Mərcanlının bərpasına başlanıldı. İndi görürsünüz, həyat necə qaynayır. Bu cür gözəl şərait qurulub. Məktəb, bağça, inzibati binalar, gözəl evlər tikilib. Dağıdılıb sıradan çıxmış yollar bərpa olunub. İlk mərhələdə yaşayış evi, Şuşa məscidinin bənzəri olan gözəl bir məscid və məktəb binası inşa olunub. Cənab Prezident bu kəndin açılışında oldu. Ölkə başçısının diqqət və qayğısı ilə mənə torpaq sahəsi verildi. Biz burada düşmənlə üz-üzə yaşayan sakinlərik. Heç birimizin qorxusu yoxdur. Biz Azərbaycan dövlətinin, ordusunun gücünə arxalanırıq. İnsanlarımız da tam arxayındırlar ki, artıq güclü, vahid komandanlığa tabe olan ordumuz var. Bu kənddə yaşayırıq, yaşayacağıq da".

Növbəti həmsöhbətimiz Üzeyir Nəcəfovdur. Onunla Füzuli rayonunun Kərimbəyli kəndində görüşürük. Aprel döyüşlərində güllə yarası alıb, II qrup əlildir. Hadisələrin canlı şahidi olan Üzeyir söhbət zamanı bildirdi ki, aprel döyüşləri qürurla xatırlayacağımız bir gündür. "Düşmən mart ayından etibarən dəfələrlə təxribat törədirdi. Təxribatın qarşısı alınırdı. Bu dəfə fərqli oldu. Biz həm öz əlimizdə olan mövqelərimizin təhlükəsizliyini təmin etdik, həm də çoxdandı həsrətində olduğumuz torpaqlara ayaq basmaq üçün irəli atıldıq. Düşməni geri otuzdurduq. Lələtəpə yüksəkliyini azad etdik. Geri çəkilmədik. Aprel döyüşləri Ermənistan ordusunun gücü ilə bağlı yaranmış mifi darmadağın etdi. Onlar hələ də bu məğlubiyyəti həzm edə bilmirlər. Bizim torpaqlarımız tezliklə işğaldan azad olunacaq. Aprel qələbəsi davamlı olacaq".

Üzeyir Nəcəfov bizi 4 yaşlı oğlu Hacı Nəcəfovla tanış edir. Atası onun üçün hərbi forma tikdirib. "Böyüyəndə kim olacaqsan?", - sualımızı belə cavablandırır: - Əsgər olacam.

Bəli, hər birimiz bu Vətənin əsgəriyik. Kimimiz səngərdə, kimimiz seçdiyimiz peşə ilə bu Vətənə xidmətdə. Amalımız birdir: əzəli ata-baba yurdlarımıza qayıtmaq. Ermənistan ordusu aprel döyüşlərində bir daha anladı ki, bu dəfə könlümüzün keçdiyi Qarabağdan ordumuz keçəcək!

**Ruhiyyə RƏSULOVA,**
**Naxçıvan Televiziyasının baş redaktoru**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan Ordusunda idman yarışları keçirilir

Azərbaycan Ordusunda müxtəlif idman növləri üzrə yarışlar keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışlarda birlik, birləşmə və hərbi hissələrin şəxsi heyəti iştirak edir. Müxtəlif mərhələlərdə keçirilən yarışlarda şəxsi heyət qüvvə və bacarıqlarını sınayacaq.

Yarışların nəticələrinə əsasən, müəyyən ediləcək qaliblər komandanlıq tərəfindən mükafatlandırılacaq.

## Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter məhv edilib

Aprelin 17-də cəbhənin Tərtər istiqamətində ordumuzun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq məhv edilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 aprel 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan da (3 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 91 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Şirvanlı, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir.

**Suallar:**
**1. Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir.**
**2. Müasir Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin əsəridir.**

*Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir*

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri var. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdışı, elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ulu Öndərin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycanın dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə ümummilli lider Heydər Əliyevin xidmətləridir.

İqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir.

Azərbaycanda qeyri-neft sektorunun uğurla inkişaf etdirilməsi də dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörənliyinin məntiqi nəticəsidir.

Ümummilli lider Heydər Əliyev torpağın şəxsi mülkiyyətə verilməsi ilə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür.

Ulu Öndərin vaxtilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Ordusunun Cənubi Qafqazda aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

*Müasir Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin əsəridir*

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Ulu öndərin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Dahi şəxsiyyət Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Xalqımızın ümummilli liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz Vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Ümummilli lider Heydər Əliyevin XX əsrdə totalitarizmin Azərbaycana qarşı törətdiyi faciələrin davamı kimi qanlı 20 Yanvarı xalqımız əleyhinə hərbi, siyasi və mənəvi təcavüz kimi qiymətləndirməsi onun ömrü boyu sadiq qaldığı siyasi məfkurəsinin və yüksək vətənpərvərliyinin yeni siyasi şəraitdə təcəssümü idi. Mövcud siyasi, iqtisadi və sosial böhran müstəqilliyimizin ilk illərində Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdığı bir dövrdə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi gün - 1993-cü ilin 15 iyunu tariximizə "Qurtuluş Günü" kimi daxil olmuşdur. Bu qurtuluş qısa bir zamanda özünü nəinki siyasətdə, həm də iqtisadiyyatda, təhsildə, mədəniyyətdə və insanların gündəlik real həyatında büruzə vermişdir.

Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üzüzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Dahi şəxsiyyət Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla sosial yönümü ilə səciyyələnirdi. Bu gün Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, yüzlərlə senzurasız qəzet və jurnalın nəşr olunduğu, eləcə də çox sayda özəl telekanalların yayımlandığı və internet şəbəkəsi istifadəçilərinin sayının sürətlə artdığı bir ölkədir.

Ümummilli lider Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.

Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün böyük tikinti meydançasını xatırladır. Yüzlərlə sənaye və infrastruktur obyektləri, məktəblər, xəstəxanalar, idman qurğuları, yaşayış evləri, inzibati binalar və digər tikililər ucaldılır, yollar salınır. "Azərbaycan 2020 - gələcəyə baxış" İnkişaf Konsepsiyası bizim gələcək planlarımızı əks etdirməklə yanaşı, bir daha sübuta yetirir ki, Ulu Öndərin ölkəmizin dinamik tərəqqisini bu gün də təmin edən irimiqyaslı proqramları xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir.

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətləri olmuş, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermişdir.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Ermənistan ordusunda kriminal hadisələr

Bu il aprelin əvvəllərində hərbi hissədə xidmət edən övladlarını görməyə gələn iki ermənistanlı valideyn oğullarının mübahisə zəminində amansızcasına döyüldərək zorakılığa məruz qaldıqları barədə hərbi istintaq orqanlarına müraciət ediblər.

İşğal altında olan ərazilərimizdə yerləşən düşmən ordusunun hərbi hissələrindən birində xidmət edən Hrant Manqasaryan və Aşot Hakopyan da öz izahatlarında daim zabitlər tərəfindən zorakılığa məruz qaldıqlarını və etiraz etdikdə isə döyüldüklərini etiraf ediblər.

* * *

İşğal olunmuş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən düşmən ordusunun bölmələrindən birində tabor komandirinin müavini vəzifəsində xidmət edən zabiti Artur Balayan naməlum şəraitdə avtomatını itirdiyini bildirib. İlkin araşdırmaya əsasən, məlum olub ki, zabit yığılan borcunu ödəmək məqsədilə silahını satıb.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən düşmən ordusunun bölmələrindən birində mühəndis-istehkam işləri apararkən təhlükəsizlik qaydalarının pozulması nəticəsində bədbəxt hadisə baş verib. Hərbi hissənin əsgəri Haykaz Ağacanyan mühəndis işlərini yerinə yetirərkən səngərin üzərinə qoyulan tirin altında qalaraq ağır bədən xəsarətləri alıb və nəticədə qolu sınıb.

* * *

İşğal olunmuş Ağdərə yaşayış məntəqəsi ərazisində yerləşdirilən düşmən ordusunun taborlarından birində Ermənistandan çağırılan əsgərlərlə, Qarabağdan olanlar arasında kütləvi dava baş verib.

Münaqişənin ən fəal iştirakçıları Arayik Sarkisyan, Arqişt Bağdasaryan, Karen Martirosyan, Harut Petrosyan həbs edilərək hərbi polisə aparılıb.

Artur adlı əsgərin isə aldığı çoxsaylı bədən xəsarətləri ilə hərbi hospitala yerləşdirildiyi də məlum olub.

Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən düşmən ordusunun hərbi hissələrindən birində 5-ci bölükdə komandir müavini vəzifəsində xidmət edən Hayk Xalatyan hərbi hissə komandirinə müraciət edərək döyüş postunda xidmət edən əsgərin evə göndərilməsini xahiş edib.

Hərbi qulluqçu Vazgen Arşakyan evə getdikdən sonra, bölük komandirinin müavini Hayk Xalatyanın komandanlıqdan "əsgərə icazə xahişini" yüksək məbləğdə rüşvət müqabilində etdiyi ortaya çıxıb.

Hərbi polisə çağırılan H.Xalatyanla bağlı araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Ordu və cəmiyyət

# "Hürriyyət və istiqlaliyyət üçün ölmək şərəfdir"



*Cümhuriyyət Parlamentinin orqanı olan "Azərbaycan" qəzetinin 8 dekabr 1918-ci il tarixli sayında mart soyqırımlarına həsr olunmuş məqalədə yazılır: "Biz öz məqsədlərinə nail olmaq üçün heç bir vasitədən çəkinməyən siyasi düşmənlərimizə bənzəyə bilmərik və bənzəmək istəmirik. Biz təmkin və soyuqqanlılıqla, haqlı olduğumuzu tam dərk edərək, təmiz vicdanla öz məqsədimizə doğru gedirik və inanırıq ki, ətrafımızda olan bütün xalqlara münasibətdə bizim loyallığımız, səmimiliyimiz və sadəliyimiz kin və eqoist ehtirasların gözlərini gerçəkliyə qapamadığı hər kəs tərəfindən, nəhayət ki, etiraf olunacaq və qiymətləndiriləcək. Fakt göz qabağındadır. Kim istəyirsə, yoxlaya bilər."*

Bu sətirlər Quba Soyqırımı Memorial Kompleksində yaradılan Abidə-muzeyin ekspozisiyasına xalqımızın 1918-ci il qırğınlarına münasibətini əks etdirən epiqraf kimi verilmişdir. Muzeyin ekspozisiyası ilə tanış olduqca bir anlıq sanki o faciələrin canlı şahidinə çevrilirsən. Qətliamlar, qırğınlar, talanlar gözlərimiz önündən kino lenti kimi gəlib keçir. Sənədlər, fotoşəkillər, ümumilikdə o dövrün soyqırımı hadisələrini əks etdirən bütün eksponatlar sanki canlıdır. Muzeyə gələnlərə o dəhşətli insan qırğınlarından danışır.

Abidə-muzeyin giriş, əsas zal və çıxış hissələrində yerləşdirilmiş ekspozisiyasında 1918-ci il mart-iyul aylarında Bakı quberniyasının beş qəzasında - Bakı, Şamaxı, Quba, Göyçay və Cavad qəzalarında yaşayan müsəlman əhalisinin soyqırımı tarixi öz əksini geniş tapıb. Eyni zamanda muzeyin memarlıq quruluşunda da hüznlüyü əks etdirən məqamlar yer alıb. Yaşanmış hadisələrin miqyası, ağırlığı və acılığı faciə qurbanlarının xatirəsinə dərin hörmət əlaməti olaraq hər hansı dekorasiyadan imtina edilərək matəm sükutunu təmkinlə təcəssüm etdirən möhtəşəm ekspozisiya yaradılıb. Öyrənirəm ki, ekspozisiyanın müəllifi tarix elmləri doktoru, professor Solmaz Rüstəmova - Tohidir.

Bildiyimiz kimi, ötən əsrin əvvəllərində bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi etnik təmizləmə və təcavüzkar siyasəti nəticəsində Bakı, Quba, Şamaxı, Göyçay, Cavad, Salyan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə on minlərlə günahsız azərbaycanlı qətlə yetirilərək, xalqımıza qarşı XX yüzilliyin ən faciəli soyqırımlarından biri törədilib. 1918-ci ilin aprel-may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə dağıdılıb, Quba şəhəri talanlara və yanğınlara məruz qalıb, qəzanın müsəlman, qismən də yəhudi əhalisi kütləvi şəkildə qətllərlə üzləşib.

2007-ci ilin aprelin əvvəllərində (burada insanların kütləvi qətlləri də 89 il əvvəl apreldə baş vermişdi) Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq 1918-ci il aprel-may aylarında ermənilər tərəfindən törədilmiş Qubanın müsəlman əhalisinin soyqırımının əyani sübutudur. Qeyd edək ki, dövlətimizin başçısı İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamına uyğun olaraq, erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı 1918-ci ildə bütün ölkə hüdudlarında həyata keçirdikləri cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin




əbədiləşdirilməsi məqsədi ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılmasına qərar verilmişdi. Memorial kompleks 2012-2013-cü illərdə inşa edilib. Bu gün Quba Soyqırımı Memorial Kompleksi xalqımızın, o cümlədən dünya azərbaycanlılarının ziyarət yerinə çevrilib.

Quba Soyqırımı Memorial Kompleksinin direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun dissertantı Rəxşəndə Bayramovanın elmi işi də Quba bölgəsi ilə bağlıdır. Mövzusu "Azərbaycan Xalq Cümhuriyyətində Quba bölgəsi" adlanır. Quba soyqırımı ilə bağlı çoxlu sayda arxiv sənədlərinə əsaslanaraq geniş araşdırma apardığını söyləyən Rəxşəndə xanım qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yarandıqdan ay yarım sonra ölkə ərazisində baş verən qanlı hadisələrə münasibət bildirməyi zəruri sayır. Ona görə də 1914-cü ildən - Birinci Dünya müharibəsi başladığı vaxtdan bolşevik adı altında erməni quldur dəstələri tərəfindən müsəlman əhalisinə və onun mülkiyyətinə qarşı törədilən zorakılıq hallarını araşdırmaq məqsədi ilə 1918-ci il 15 iyul tarixində Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar qəbul edilir. Ədliyyə Nazirliyi yanında fəaliyyət göstərən FTK-nın sədri dövrünün tanınmış hüquqşünası Ələkbər bəy Xasməmmədov idi. Təhqiqat komissiyası Quba qəzasında 1918-ci ilin dekabrından işləməyə başlayır. Qısa müddət ərzində onlarla şahid dindirilir, hadisələrin baş verdiyi yerlərə baxış keçirilir. Çoxlu sayda sənədlər toplanaraq üç cild, 451 vərəqdən ibarət istintaq materialı hazırlanır. Komissiyanın topladığı sənədlər ermənilərin cinayətlərini bütün təfərrüatı ilə ifşa etməklə yanaşı, Quba hadisələrinin də erməni millətçilərinin "Böyük Ermənistan"ın ərazisi kimi baxdıqları Azərbaycanın bütün regionlarında müsəlman əhalisinin sayının maksimum dərəcədə azaldılmasına can atan daha irimiqyaslı əməliyyatlarının, planlarının tərkib hissəsi olduğunu sübut edir."

Fövqəladə Təhqiqat Komissiyasının üzvü Andrey Novatskinin Quba qırğınları ilə bağlı hazırladığı məruzələrdə, sənədlərdə dəhşətli faktlara rast gəldiyini deyən R.Bayramova söhbətində həmin məqamlara da toxundu: "Çoxsaylı sənədlər, o cümlədən komissiyanın materialları təsdiq edir ki, Amazaspın 3000 minlik hərbi birləşməsi Qubaya Şaumyanın başçılıq etdiyi Bakı Soveti tərəfindən göndərilmişdi və o yalnız cəza məqsədi güdmürdü. Amazaspın qarşısına qoyulan əsas vəzifə qəzanın müsəlman əhalisinin kütləvi şəkildə məhv edilməsi və onun əzəli torpaqlarından sıxışdırılaraq çıxarılması idi. Silahlı erməni quldur dəstələri hələ Qubaya yetişənə qədər Bakıdan Qubaya və geriyə hərəkət edərkən bütün dəmir yolu xətti boyunca yolun hər iki tərəfində yerləşən müsəlman kəndlərinə basqın edir, qarət və talanlardan sonra onları yandırır, məscidlərə, müqəddəs Quran kitablarına od vurur, qadına, uşağa, qocaya rəhm etmədən rastlarına çıxan bütün sakinləri öldürür, əmlaklarını isə talayırdılar. Şahidlərin dindirilmə protokolunda bildirilir ki, Quba şəhərinin ərazisində erməni quldurları tərəfindən yaralanan və şikəst edilənlər yoxdur və ola da bilməz, çünki onlar çox sərrast atırdılar. Bir güllə əvəzinə, 40-50 güllə işlədirdilər. Bundan əlavə onlar qarşılarına çıxan hər kəsi xəncərlə doğrayır, ölənə qədər tüfəngdən atəşə tutur, öldürəndən sonra isə meyitləri eybəcər hala salırdılar. Amazaspın qoşunları 9 gün ərzində şəhərin müsəlman əhalisinə görünməmiş vəhşilik və qəddarlıqla divan tutublar. Dinc insanları qətlə yetirdikdən sonra erməni əsgərləri evlərə hücum çəkir, qundaqda olan körpələrə belə rəhm etmədən bütöv ailələri məhv edirdilər. Hətta meyitlərin yığışdırılmasına, dəfn edilməsinə icazə verilmirdi. Şəhərin küçələri, həyətlər, evlər eybəcər hala salınmış kişi, qadın, uşaq cəsədləri ilə dolu idi. Komissiyanın sənədlərində belə tükürpədici faktlara çox rast gəlinir."

Quba qırğınlarından bir əsr ötsə də, qubalılar erməni-bolşevik qüvvələrinin törətdiyi qanlı hadisələri yaddan çıxarmır, faciə qurbanlarını daim anır, xatirəsini əziz tuturlar.

Yazımın sonunu 1919-cu il 29 mart "İstiqlal" qəzetində dərc edilən 31 mart soyqırımı qurbanlarının birinci ildönümünün Matəm gününə həsr olunan məqalədən sətirlərlə bitirirəm: "...Matəm bizə vətənpərvərliyi bildirəcək. Vətən yolunda ölməyin, Vətən üçün qurban verməyin mənəvi ləzzətini hiss edirəcəkdir. Matəm istiqlal və hürriyyətimizin mənəvi dirəyi olacaqdır. Hürriyyət və istiqlaliyyət üçün ölmək bir şərəf, yaşamaq bir vəzifədir.

Rəhmət olsun Sizə, ey şəhidlər! Hörmət və təzim olsun sizə, ey Vətən qəhrəmanları! Salam və dua olsun sizə, ey millət fədailəri!"

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türk pilotlar möhtəşəm uçuşlarla vətəndaşların görüşünə gəlib



Türkiyə Hərbi Hava Qüvvələrinin ölkənin Konka bölgəsindəki hərbi hissəsində yerləşən döyüş təyyarələri möhtəşəm uçuşlarla vətəndaşların görüşünə gəliblər.

Bir sıra beynəlxalq uçuş yarışlarının qalibi olan türk hərbi pilotlar cəsur və məharətli uçuşlar həyata keçiriblər. On minlərlə vətəndaş onların seyrinə çıxıb.

## Ermənistanda aksiyaçılar parlamentə gedən yolları bağlayırlar



Keçmiş prezident Serj Sarkisyanın baş nazir vəzifəsinə namizədliyinə etiraz edən müxalifət fəalları Ermənistan paytaxtının mərkəzi küçələrini bağlayırlar.

Aksiya iştirakçıları maşınlardan, skamyalardan, zibil qutularından istifadə etməklə parlamentə gedən yolları bağlamağa çalışırlar. "Biz baş nazir seçkilərinin keçirilməsinə imkan verməyəcəyik. Parlamentə gedən bütün yolları bağlayacağıq ki, deputatlar parlamentə daxil ola bilməsinlər",- deyə Ermənistan parlamentinin "Elk" müxalifət fraksiyasının rəhbəri Nikol Paşinyan bildirib.

## ABŞ Fransa və Böyük Britaniya ilə birgə Suriyaya qarşı hərbi əməliyyata başlayıb



ABŞ administrasiyası Suriyaya hücum ilə bağlı qərar qəbul edib.

ABŞ Suriyaya qarşı hərbi əməliyyatı Fransa və Böyük Britaniya ilə birgə həyata keçirir. Bu barədə ABŞ Prezidenti Donald Tramp Ağ Evdə çıxışı zamanı bildirib. Onun sözlərinə görə, hazırda hava zərbələri Suriya hökumətinə məxsus kimyəvi silah istehsalı obyektlərinə endirilir.

## Misir ordusu Sinay yarımadasında 27 ekstremisti məhv edib



Misir ordusunun Sinay yarımadasının şimalında bir neçə ay apardığı "Sinay 2018" antiterror əməliyyatı nəticəsində son günlər ərzində 27 ekstremist məhv edilib, cinayətkarlıqda və terrorçularla əlaqələrdə şübhəli bilinən 114 nəfər saxlanılıb.

Misir silahlı qüvvələrinin rəsmi bəyanatına istinadən xəbər verilir ki, əməliyyatlar nəticəsində ekstremistlərin istifadə etdikləri nəqliyyat vasitələri, təlim düşərgələri, 150-yə yaxın gizli sığınacaq, silah-sursat anbarları məhv edilib. Həmçinin 831 avtomat, 1384 tapança, külli miqdarda döyüş sursatı və 2300 mobil telefon aşkarlanıb.

## NATO: Rusiyadan S-400 zenit-raket kompleksləri alması Türkiyənin suveren hüququdur



Rusiyadan S-400 zenit-raket komplekslərinin alınması Türkiyənin suveren hüququdur, lakin problem onların NATO-nun hava hücumundan müdafiə sisteminə inteqrasiyasından ibarətdir.

Alyansın Baş katibi Yens Stoltenberq bunu Ankaraya səfəri zamanı Türkiyənin NTV telekanalına müsahibəsi zamanı bildirib. O, müsahibəsində, həmçinin qeyd edib ki, Türkiyə belə inteqrasiya üçün müraciət etməyib, ona görə də hazırda alyansın bununla bağlı narahatlığı yoxdur.

**AZƏRTAC-ın materialları əsasında**

# Asudə vaxt səmərəli təşkil olunur

*Ordu sıralarında xidmət edən gənclərin asudə vaxtlarının düzgün təşkili də komandirlər qarşısında duran mühüm vəzifələrdən biridir. İstirahətin mənalı keçirilməsi əsgərin mənəvi-psixoloji durumuna müsbət təsir edən əsas amillərdəndir. Ümumiyyətlə, asudə vaxt şəxsiyyətin hərtərəfli inkişafında, mənəvi və estetik mədəniyyətinin yüksəldilməsində mühüm rol oynayır.*



Ön xətdə yerləşən "N" hərbi hissəsində mayor Bəhruz Qafarovla şəxsi heyətin gündəlik fəaliyyəti ilə bağlı söhbət edirik. Zabit deyir ki, şəxsi heyətə günün nizam qaydasına uyğun olaraq sıra hazırlığı, döyüş hazırlığı, ictimai-siyasi hazırlıq, siyasi məlumatlandırma və digər məşğələlər keçirilir. "Bütün fəaliyyətlər komandirlərin nəzarəti altında yerinə yetirilir. Əsgərlər də keçirilən dərslərə həvəslə yanaşır, öyrədilənləri dərindən mənimsəməyə can atırlar. Hər biri üzərinə düşən vəzifələrə məsuliyyətlə yanaşır, Vətənə xidmətin müqəddəsliyini yaxşı dərk edir. Tez-tez onlarla fərdi söhbətlər aparır, qayğıları ilə yaxından maraqlanırıq. Torpaqlarımız əsgərlərə əmanət olduğu kimi, onlar da bizlərə əmanətdir. Bu igid oğullarımıza həm komandir oluruq, həm də doğma insan. Onları öz övladlarımızdan ayırmırıq", - mayor B.Qafarov deyir.

Yataqxanaya gəlişimiz asudə vaxt saatına təsadüf edir. Zabitə məruzə edən növbətçi şəxsi heyətin sinif otağında olduğunu bildirir. Otağa daxil oluruq. Əsgərlər dama, şahmat, domino oynayır, "Azərbaycan Ordusu" qəzetindən, hərbi jurnallardan məqalələr və bədii kitablar oxuyurlar. Bir sözlə, asudə vaxtın səmərəli təşkilinin şahidi oluram. Dama oyununda bacarıqlarını sınayan əsgərlərdən Murad Cabbarlı cüzi üstünlüklə oyunun qalibi olur. Hərbi xidmətə Oğuz rayonundan çağırılan Murad əsl qələbəni əsgər yoldaşları ilə çiyin-çiyinə döyüş meydanında qazanacağını deyir:

- Bu oyunda gah Tural qalib gəlir, gah da mən. Bizim üçün Qələbə, torpaqlarımızın işğaldan azad olunacağı gün olacaq. Onda Böyük Qələbə münasibəti ilə bir-birimizi təbrik edəcəyik. Yaxşı bilirəm ki, torpaqlarımızı işğaldan azad etmək bizim üzərimizə düşür. Bunun üçün də xidmətimizi uğurla keçirir, hərbi bilik və vərdişlərə dərindən yiyələnirik. Aprel qələbəmizi təkrarlamaq üçün Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazırıq!

Başqa bir əsgər Vasif Məcidzadə "Azərbaycan Ordusu" qəzetindən məqalələr oxuyur. Hərbi xidmətə Şəmkir rayonundan çağırılıb. Qəzetin hər sayını səbirsizliklə gözlədiyini deyir:

- Asudə vaxtlarımda ən sevdiyim məşğuliyyətlərimdən biri "Azərbaycan Ordusu" qəzetini oxumaqdır. Ön xətdən reportajlar, əsgər məktubları, nümunəvi xidmət, döyüş texnikaları haqqında yazıları oxumaq xoş hisslər aşılayır. Hər həftə qəzetin yeni nömrəsini həvəslə gözləyirəm. Həm dünyagörüşümü artırıram, həm də digər hərbi hissələrdə xidmət edən silahdaşlarımı tanıyıram. Xidmətim də uğurla davam edir. Heç nədən korluq çəkmirik. Hər cür şəraitimiz var. Torpaqlarımızın keşiyində inamla dayanmışıq.

Əsgərlərlə söhbətim zamanı onların mehribanlığına, səmimiyyətinə şahid oldum. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun yüksək olduğunu gördüm. Bunlar bir daha sübut edir ki, bölmədə asudə vaxtların səmərəli keçirilməsi, ictimai-siyasi hazırlıq dərslərinin, ideoloji işin təşkili ən yüksək səviyyədə həyata keçirilir. Şəxsi heyət arasında vətənpərvərliyin, Vətən sevgisinin aşılanması, milli mənəvi dəyərlərin təbliği düzgün təşkil olunur. Əsgəri xidmət keçən hər bir gənc hərbi biliklərə, döyüş hazırlığına sahib olmaqla yanaşı, dövlətçiliyimizə, milli dəyərlərimizə sadiq, vətənpərvər, cəmiyyətə layiqli vətəndaş kimi də formalaşır.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi "Ehtiyat zabit hazırlığı kursu"na namizədlərin qəbulunu elan edir

Müdafiə Nazirliyinin hərbi hissələrinə zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olmaq arzusunda olan müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ali təhsilli, 28 yaşınadək vətəndaşlar aprelin 16-dan mayın 1-dək müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (SQ TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

Müraciət etmiş vətəndaşlar hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilir və komissiyanın qərarına əsasən, hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə verəmiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran kursantlara leytenant hərbi rütbəsi verilməklə zabitlərin həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma bağlanır və ixtisaslarına uyğun vəzifələrə təyin olunurlar.

Namizədlər SQ TTM-də fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə - 1 nüsxədə və çap edilmiş - 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- ali təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- xarici dövlətlərdə təhsil almış namizədlər üçün, ali təhsil haqqında sənədin notarial qaydada tərcümə və təsdiq edilmiş surəti ilə yanaşı, həmin sənədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə);
- psixoloji, nevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması barədə arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi haqqında arayış;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə.

**Qeyd:** Məhkumluğu olan hərbi vəzifəlilərin "Ehtiyat zabit hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi)

**Telefon:** (012) 538-85-62

**Müraciət etmə vaxtı:** Aprelin 16-dan mayın 1-dək hər gün (bazar günü istisna olmaqla) saat 09.00-dan 17.00-dək.

# Hərbi texnikalar, silahlar



## "4J61" döyüş sursatı

"4J61" döyüş sursatından artilleriya və minaatan batareyalarını, HHM vasitələrini, taktiki raket buraxıcı qurğularını, moto-piyada və tank bölmələrinin zirehli atəş vasitələrini məhv etmək üçün istifadə edilir. Bundan başqa mərmidən canlı qüvvəni, səhra və başqa müdafiə tikililərini də məhv etmək olar. "4J61" mərmisi 2A65 və 2S19 toplarından atəş açmaq üçün də istifadə edilə bilər. Onun tərkibi 30F61 mərmisindən, uzaq vuran təchizatdan, RQM-2M partlayıcısından ibarətdir. Mərminin gövdəsi yüksək qəlpəli poladdan hazırlanıb. Çəkisi 42,86 kiloqram, partlayıcı maddəsinin (A-1X-2) çəkisi 7,8 kiloqram, maksimal atəş uzaqlığı isə 29 kilometrə qədərdir. Ondan mənfi 50 və müsbət 50 dərəcə temperaturda da istifadə etmək olur.

## 120 mm-lik minaatan və 2C12 "Sani" minaatan kompleksi



120 mm-lik 2B11 minaatanı əvvəlki M-43 modelinin təkmilləşmiş modifikasiyasıdır və burada əsas dəyişiklik onda yeni materiallardan istifadə edilməsindədir. Bu döyüş vasitəsinin yığılmış vəziyyətdə yüngül təkərli qoşquda daşınması onun M-43-dən fərqlənməsinin əsas cəhətidir. Öz sələflərindən çəkisinin az olması ilə fərqlənir. Minaatanın buraxıcı-çaxmaq mexanizmi ilə təchiz edilməsi mümkündür. 2B11 quraşdırılması üçün bir neçə özüyeriyən şassi də mövcuddur. 120 mm-lik 2B11 minaatanından praktiki olaraq 120 mm-lik minanın hər hansı bir növündən atəş açmaq olar. Onun maksimal atəş uzaqlığı 7100 metr, minimal atəş uzaqlığı isə 480 metr təşkil edir. Atəş tezliyi isə dəqiqədə 15 atışdır. Heyəti beş nəfərdən ibarətdir. Çəkisi isə 210 kiloqramdır. Səyyar vəziyyətdə eni 1 metr təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 240
Nüsxə 3525